Prof. Dr. Yaqub Mahmudov 80. Yıl Armağanı Özel Sayısı
ISSN:2148-2292
Akademik Tarih ve Düşünce Dergisi, 6(5) Kış 2019 ss. 17-41
Academic Journal of History and Idea, 6(5) Winter 2019 pp. 17-41
Araştırma Makalesi
Original Article

# Türk Dünyası Tarixçilərinin Ağsaqqalı

**İradə Məmmədova***
**ORCID: 0000-0002-2273-5732**

*"Bütün türk dünyasını qafalarda birləşdirmək lazımdır"*
*Akademik Yaqub Mahmudov*

**Xülasə**

Görkəmli tarixçi, akademik Yaqub Mahmudov sadəcə Azərbaycanın deyil, eyni zamanda bütün türk dünyası tarixçilərinin ağsaqqalıdır. AMEA Tarix İnstitutunun direktoru kimi xarici ölkələrin elm adamları ilə elmi əlaqələrin inkişafına və yaradılmasına kömək edir. Yaqub müəllim eyni zamanda dünyanın bir çox ölkələrindən Azərbaycan aid arxiv sənədlərinin gətirilməsi və nəşr edilməsi, Azərbaycan tarixinin bütün sahələrini işıqlandıran kitabların yazılması və təbliğ edilməsi istiqamətində yorulmadan və usanmadan fəaliyyət göstərir. Onunla çalışanlar Yaqub Mahmudovdan tarixi hadisələrə, tarixi şəxsiyyətlərə, digər ölkələrin alimləri ilə ünsiyyətdə, ümumilikdə hadisələrə, insanlara və tarix elminə münasibətdə dəyərli metod və yanaşmaları öyrənirlər. Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun direktoru akademik Yaqub Mahmudov Azərbaycanda yüksək ixtisaslı kadrların-tarixçilərin hazırlığında mühüm rol oynayır. AMEA Tarix İnstitutunun Yaqub müəllimin başçılığı ilə türk dünyasının alimləri ilə əlaqələrin yaradılması, əməkdaşlıq protokollarının imzalanması və ən vacibi isə türk dünyasındakı dövlətlərin və şəxsiyyətlərin araşdırılması və tarixinin yazılması prosesinə başlanmış və uğurla davam etdirilməkdədir. Bu proses orta məktəb dərsliklərində də öz əksini tapmışdır. Bu məqalə"Bütün türk dünyasını qafalarda birləşdirmək lazımdır" deyən türk dünyası tarixçilərinin ağsaqqalı Yaqub Mahmudovun yubileynə həsr edilmişdir.

**Açar sözlər**: Türk dünyası tarihçilərinin ağsaqqalı, Yaqub Mahmudov, AMEA Tarix İnstitutu, Heydər Əliyev, Azərbaycanın tanınmış tarixçisi

**Gönderme Tarihi: 16/03/2019** **Kabul Tarihi:26/06/2019**

---

* *Dosent, t.ü.f.d. İradə Məmmədova, AMEA A.A. Bakıxanov adına Tarix İnstitutu "Ümumi tarix" şöbəsi, "Avropa ölkələri tarixi" bölməsinin müdiri*

# The Scholar Who Has Great Authority Among The Historians of The Turkish World

**İrade Memmedova**

**Abstract**

The outstanding historian, academician Yagub Mahmudov is the aksakal (*aksakal - one who has authority*) of not only Azerbaijani historians, but also of the entire Turkic world. As the director of the Institute of History of ANAS, he contributes to the development and establishment of scientific ties with scientists from foreign countries. Yagub Mahmudov pays great attention to the collection and publication of archival documents about Azerbaijan from many countries of the world, works tirelessly on writing and promoting books covering all aspects of Azerbaijan's history. Those, who work with him, learn from Yagub Mahmudov valuable methods and approaches to historical events, historical personalities, to establish contacts with scientists from other countries, and most importantly - the development of historical science in Azerbaijan. The Director of the Institute of History of the National Academy of Sciences of Azerbaijan, Academician Yagub Mahmudov, plays an important role in the training of highly skilled specialists - historians in Azerbaijan. The process of establishing contacts with the scientists of the Turkic world under the leadership of Yagub Mahmudov, the signing of protocols on cooperation and, most importantly, writing and studying the history of states and personalities of the Turkic world has began and continues successfully today. This process is also reflected in the secondary school textbooks. This article is dedicated to the jubilee of Yagub Mahmudov, the aksakal of Turkic world historians, who uttered the historical phrase: It is necessary to unite the whole Turkic world in the brain".

**Keywords:** The scholar who has great authority among the historians of the turkish world, Yagub Mahmudov, The Institute of History of ANAS, Heydar Aliyev, the Great Historian of Azerbaijan.

**Received Date: 16/03/2019** **Accepted Date: 26/06/2019**

# Аксакал Историков Тюркского Мира

Ираде Меммедова

**Резюме**

Выдающийся историк, академик Ягуб Махмудов - аксакал не только азербайджанских историков, но и всего тюркского мира. Как директор Института истории НАНА, он способствует развитию и налаживанию научных связей с учеными зарубежных стран. Ягуб меллим большое внимание уделяет также сбору и публикации архивных документов об Азербайджане из многих стран мира, неустанно работает над написанием и пропагандой книг, охватывающих все аспекты истории Азербайджана. Те, кто работает с ним, учатся у Ягуба Махмудова ценным методам и подходам к историческим событиям, историческим личностям, общению с учеными из других стран, а самое главное - развитию исторической науки в Азербайджане. Директор Института истории Национальной Академии наук Азербайджана академик Ягуб Махмудов играет важную роль в подготовке высококвалифицированных кадров-историков в Азербайджане. Процесс установления контактов с учеными тюркского мира под руководством Ягуб меллима, подписание протоколов о сотрудничестве и, самое главное, написание и изучение истории государств и личностей тюркского мира начался и успешно продолжается сегодня. Этот процесс также отражен в учебниках средней школы. Эта статья посвящена юбилею Ягуба Махмудова, аксакала тюркских историков мира, который произнес историческую фразу: «Необходимо объединить весь тюркский мир в мозгу».

**Ключевые слова**: Аксакал Историков Тюркского Мира**,** Ягуб Махмудов, Институт Истории НАНА**,** Гейдар Алиев, великий историк Азербайджана

**Получено: 16/03/2019** **Принято: 26/06/2019**

## Giriş

Sadəcə Azərbaycanın deyil, bütün türk dünyası tarixçilərinin çəfakeş ağsaqqalı, görkəmli tarixçi, akademik Yaqub Mahmudovla tanışlığım 2004-cü ildə onun AMEA Tarix İnstitutuna direktor təyin olunması ilə başladı. Təbii ki, akademikin əsərləri ilə hələ orta məktəb illərindən tanış idim, şəxsi kitabxanamda digər tarixçilər kimi onun da kitabı var idi. Amma bir insan olaraq Yaqub müəllimi 2004-cü ildən tanımağa başladım. 2004-cü ildə mən namizədlik dissertasiyası mudafiə etdim və bu zaman Yaqub müəllim Bakıda yox idi. Ancaq Bakıya qayıdan kimi məni yanına çağırdı, təbrik etdi, eşitmişəm gözəl müdafiə etmisən dedi. Haqqımda hər şeyi bilirdi, iki institut bitirdiyimi belə. Bu o demək idi ki, Yaqub müəllim hər bir institut əməkdaşı haqqında məlumatlı idi, yəni bir institut direktoru kimi işçilərinə qiymət verməyi, onları lazımı istiqamətə yönləndirməyi yaxşı bacarırdı. Məni Koordinasiya Şurasının işinə, sonra da “İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarının köçürülməsi” kitabının yazılması prosesinə cəlb etdi. Kitabın yazılma prosesində əlavə etdiyimiz hər bir material, tərtib etdiyimiz hər bir cədvəl, şəkil vəya xəritə ilə diqqətlə tanış olur, qiymətli məsləhət və tapşırıqlarını verirdi. Eyni zamanda məni konfransların təşkilinə cəlb etdi, Rusiya və Türkiyə arxivlərindən Azərbaycan tarixi, xüsusulə də soyqırımlar ilə bağlı arxiv sənədlərinin gətirilməsi üçün yaradılan qrupun tərkibinə daxil etdi və xarici ölkə alimləri ilə əlaqələrin qurulmasını mənə həvalə etdi. Beləliklə, xarici ölkələrlə əlaqələrdə daha çox türk ölkələri ilə əlaqələrin qurulmasına önəm verdiyindən bu yöndə, eyni zamanda arxiv sənədlərinin nəşr edilməsində, elmi əməkdaşlıq protokollarının imzalanmasında, kitabların yazılmasında Yaqub müəllimin yorulmaz fəaliyyətinin birbaşa şahidi oldum. Yaqub müəllimdən tarixi hadisələrə, tarixi şəxsiyyətlərə, digər ölkələrin alimləri ilə ünsiyyətdə, ümumilikdə hadisələrə, insanlara və tarix elminə münasibətdə dəyərli metod və yanaşmalar öyrəndim. Beləcə, AMEA Tarix İnstitutunun Yaqub müəllimin başçılığı ilə türk dünyasının alimləri ilə əlaqələrin yaradılması, əməkdaşlıq protokollarının imzalanması və ən vacibi isə türk dünyasındakı dövlətlərin və şəxsiyyətlərin araşdırılması və tarixinin yazılması prosesi başlandı. Və bu proses orta məktəb dərsliklərində də öz əksini tapmaqla davam etdirildi və etməkdədir.

Təsadüfi deyildir ki, Yaqub müəllim bu prosesin türk dünyasındakı ölkələrin orta məktəb dərsliklərində də əks olunmasını bu şəkildə dilə gətirmişdi: “Türk dünyası ölkələrindəki orta məktəblərdə ortaq türk tarixi fənni keçirilməlidir və ölkələr tərəfindən belə bir təklif də irəli sürülüb. Hər halda biz Azərbaycanda və Türkiyədə bunu edəcəyik”[1].

Türk dünyası ölkələrindən daha sıx əlaqədə olduğumuz Türkiyənin elmi qurumları, eləcə də digər türk ölkələri ilə əməkdaşlıq gözəl nəticələr verməyə başladı.

Yaqub müəllimin bu sahədə fəaliyyətini bu şəkildə qruplaşdırmaq olar:

- Yaqub müəllimin başçılığı ilə Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutu 2004-cü ildən başlayaraq Türkiyənin və digər ölkələrin elmi qurumları və universitetləri ilə əlaqələr qurmuş, əməkdaşlıq etmişdir və etməkdədir.




[1] Türkdilli ölkələrin şagirdləri üçün yeni fənnin tədrisi təklif olunur https://az.trend.az/azerbaijan (4.06. 2016).

- Əvvəllər alimlərin sadəcə türk dünyasındakı toplantı, konfranslarda iştirakı və jurnallarda məqalələrin çap edilməsi ilə başlanan elmi əməkdaşlıq 2007-ci ildə yeni mərhələsinə qədəm qoymuş oldu. Bu ildən başlayaraq Yagub müəllimin "Azərbaycan tarixi ilk mənbələrdə" lahiyəsi həyata keçirilməyə başlandı və bu lahiyə əsasında 2008-ci ildən AMEA Tarix İnstitutunun əməkdaşları Türkiyədə Başbakanlıq Osmanlı arxivindən, 2009-cu ildən dünyanın müxtəlif ölkələrindən, 2013-cü ildən Türkiyənin ATASE, Başbakanlıq Dövlət Arxivləri Baş İdarəsi Cümhiriyyət arxivi, Milli Savunma Bakanlığının arxivi, eyni zamanda kitabxanalarından Azərbaycan tarixi ilə bağlı sənədlərin gətirilməsi və tərtib edilərək nəşr edilməsinə başlandı. Və bu proses davam edir. Bu lahiyə çərçivəsində onlarla toplu nəşr edilmişdir.
- Ermənistanın Azərbaycan torpaqlarının 20% işğal etməsi, Xocalıda Azərbaycan xalqına qarşı soyqırım həyat keçirilməsi, ermənilərin Türkiyə dövlətinə münasibətdə apardığı əsassız soyqırım iddialarının təkzib edilməsi və onların türk və müsəlman xalqlarına qarşı həyata keçirdikləri soyqırımın dünyaya tanıdılması istiqamətində Yaqub müəllimin başçılıq etdiyi AMEA Tarix İnstitutu çoxsaxəli fəalliyyət göstərmişdir. Türkiyə də daxil digər türk ölkələri və digər ölkələrdə, eyni zamanda Azərbaycanda kitablar, jurnallar nəşr edilmiş, arxiv sənədləri tərtib edilərək nəşr edilmiş, elmi toplantılar, sənədli filmlər və verilişlər və s. hazırlanmışdır. Yagub müəllimin Ermənilərin Qafqazda yerli xalq olub olmaması məsələsinə cavabı bu şəkildə olmuşdur: "*Bütün məsuliyyətimlə bəyan edirəm ki, ermənilər nəinki Cənubi Qafqaza, ümumiyyətlə, Asiya qitəsinə köçüb gəlmə əhalidir. Ermənilərin gəlmə olduğunu mənbələr və "tarixin atası" Herodot təsdiq edir*". Hörmətli akademik Xocalı hadisələri haqqında bunu söyləmişdir: "*Düşünürəm ki, tarixdən, tarixi hadisələrdən, o cümlədən Xocalı soyqırımından ibrət dərsi almaq lazımdır. BMT-nin qəbul etdiyi 4 qətnamə yerinə yetirilmir. Beynəlxalq hüquq yoxdur, beynəlxalq güc var. Gəlin, tariximizə sahib çıxaq, birləşək və güclənək*"[2].

[2]Yaqub Mahmudov: "Türk dünyasını qafalarda birləşdirmək lazımdır" https://milletinsesi.info/ (28.02.2018).

- Yaqub müəllimin başçılığı ilə AMEA Tarix İnstitutu hər il mart ayının sonu və yaxud aprel ayı ərzində Türk-Müsəlman xalqlara qarşı törədilən soyqırımları mövzusunda beynəlxalq elmi konfrans təşkil edərək Azərbaycanın bu soyqırımlara məruz qalmış şəhərlərindən birində türk dünyasının alimlərini də cəlb etməklə keçirməkdədir (indiyədək beş beynəlxalq konfrans Bakı, Quba, Şamaxı, Lənkəran və Qusar şəhərlərində keçirilmişdir[3])



[3] "Azərbaycan və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırımları (1914-1920-ci illər)" mövzusuna həsr olunmuş II beynəlxalq elmi konfrans proqramı 8-12 aprel 2015, Azərbaycan, Quba şəhəri; **"**Azərbaycan və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırımları (1914-1920-ci illər)" mövzusuna həsr olunmuş II beynəlxalq elmi konfransın materialları, Elmi əsərlə**r,** xüsusi buraxılış, Bakü, 2015, 52, 53, 54, 55-ci cildlər; "Azərbaycan və Şərqi Anadoluda Türk-müsəlman əhaliyə qarşı soyqırımları (1914-1920-ci illər) mövzusuna həsr olunmuş III beynəlxalq elmi konfrans, 7-10 aprel 2016, Şamaxı şəhəri; "Azərbaycan və Şərqi Anadoluda Türk-müsəlman əhaliyə qarşı soyqırımları (1914-1920-ci illər) mövzusuna həsr olunmuş III beynəlxalq elmi konfransın materialları, Elmi əsərlər (AMEA Tarix İnstitutu), 07-10 aprel 2016, Şamaxı şəhəri, xüsusi buraxılış, Bakı 2016, c. 56,57,58; "XX əsrdə Türk-müsəlman xalqlarına qarşı soyqırımları" mövzusuna həsr olunmuş IV beynəlxalq elmi konfransın proqramı, 22-27 aprel 2017, Azərbaycan Respublikası, Lənkəran şəhəri; "XX əsrdə Türk-müsəlman xalqlarına qarşı soyqırımları" mövzusuna həsr olunmuş IV beynəlxalq elmi konfransın materialları, Elmi Əsərlər. 22-27 aprel 2017, Azərbaycan Respublikası, Lənkəran şəhəri, xüsusi buraxılış, Bakı 2017, c.64, 65, 66; 1918-ci il azərbaycanlıların soyqırımın yüzüncü ildönümünə həsr olunmuş "XX əsrdə Türk-müsəlman xalqlarına qarşı soyqırımları" mövzusuna həsr olunmuş V beynəlxalq elmi konfrans; 1918-ci il azərbaycanlıların soyqırımın yüzüncü ildönümünə həsr olunmuş "XX əsrdə Türk-müsəlman xalqlarına qarşı soyqırımları" mövzusuna həsr olunmuş V beynəlxalq elmi konfransın materialları. Elmi Əsərlər (AMEA Tarix İnstitutu). 25-29 aprel 2018, Azərbaycan Respublikası, Qusar şəhəri, xüsusi buraxılış, Bakı 2018, c. 70, 71, 72, 337-345.

- Yaqub müəllimin başçılığı ilə Türk-Müsəlman xalqlarına qarşı törədilən soyqırımlar və sürgünlər mövzusunda kitablar yazılmış, jurnal, qəzetlərdə məqalələr çap edilmiş, arxiv sənədlərinin yer aldığı toplular tərtib edilmiş, elmi toplantılar, magistr, fəlsəfə doktoru adı almaq və tarix elməri doktoru adı almaq üçün dissertasiyalar yazılmış, sənədli filmlər və televiziya verilişləri hazırlanmışdır.
- Yaqub Mahmudov digər təşkilatların da soyqırımla bağlı tədbirlərindən geri qalmır. Dövlət Sərhəd Xidmətində “Siyasi qurbanların xatirəsi muzeyi”nin açılış tədbirində çıxış edərkən görkəmli alim Yaqub Mahmudov fikrini bu şəkildə bildirmişdi: “Bir həqiqət burada tamamilə aydınlaşır ki, bizim xalqımızı məhv etmək siyasəti yeridilmişdir. Cümhuriyyəti süqut etdirərkən Gəncədə bütün camaatı - uşaqlı, qız-gəlinli, qocalı, cavanlı hamısını qırdılar. Azərbaycanın hər yerində bu soyqırımlar həyata keçirildi. Bu binada həmin o soyqırım cəlladlarının nümayəndələri, onların varisləri yuva saldılar, beləliklə repressiya orqanları əslində ermənilərin, Qriqoryanların əlində oldu, başqalarının əlində oldu və bizim xalqımıza divan tutuldu. Bu baxımdan tarixin araşdırılmasında bu muzeyin son dərəcə böyük rolu var. Xalq bu muzeyə daxil olub çıxandan sonra uşaqlarımız, gənclik, hamı bilməlidir ki, o soyqırım cəlladları kimlərdən ibarət idi. Kimlər bu cəlladlığı törədiblər, xalqımızı məhv ediblər, burada icraçılar kimlərdən ibarət olmuşdur. Onlar siyahılaşdırılacaq və güman edirəm xalqımızda düşüncə tərzi yaranacaq ki, o “Domokl qılınc”ından biz həmişə özümüzü qorumalıyıq. Həmişə düşünməliyik ki, bu cür yerlərdə Azərbaycan xalqını məhv etməyə çalışıblar. Əlbəttə, biz bu məsələləri açdıqca içəridən də, kənardan da bizə hücumlar olur və deyilir ki, tariximizi siyasiləşdiririk. Tarixi siyasiləşdirmirik! Azərbaycan xalqına qarşı soyqırım siyasəti həyata keçirilmişdir. Xalqımızın ziyalılarını şüurlu surətdə, düşünərək məhv etmək siyasətini həyata keçiriblər və biz onu ictimailəşdirəcəyik”[4]

[4] Yaqub Mahmudov: Xalqımızı məhv etmək siyasəti yeridilib https://az.trend.az/azerbaijan/society (25.05. 2019).

- Yaqub müəllimin başçılığı ilə hazırlanmış məktəb dərslikləri və programlarında türk dünyasını əhatə edən mövzular, şəxslər və dövlətlər yer almışdır. Türk dünyasının problemlərinə həsr olunmuş müxtəlif mövzularda türk ölkələrinin elmi qurumları ilə ortaq konfrans, simpozium, qurultay və seminarlar təşkil edilmişdir.
- Yaqub müəllimin başılığı ilə Ortaq türk tarixi lahiyəsinə 24-25 may 2012-ci ildə Ankara, Kızılcahamamda keçirilən "Türkiyə-Azərbaycan münasibətləri və gələcək perspektifləri" seminarında başlanmışdır[5].



5 aprel 2013-cü ildə Bakı şəhərində AMEA Tarix İnstitutu ilə Türkiyə Cümhuriyyəti Atatürk Araşdırma Mərkəzi arasında 18 bənddən ibarət Elmi Əməkdaşlıq protokolu imzalanmışdır[6].

[5] "1. Türkiye-Azerbaycan İlişkileri ve Gelecek Perspektifi" Çalıştayının programı, 24-25 Mayıs 2012, Ankara, Kızılcahamam; I. Türkiye-Azerbaycan İlişkileri ve Gelecek Perspektifi Çalıştayı Tebliğler (24-25 Mayıs 2012, Ankara, Kızılcahamam), Ankara, 2016.
[6] Başbakanlık Atatürk Kültür Dil ve Tarih Yüksek Kurumu Atatürk Araştırma Merkezi ile Azerbaycan Milli İlimler Akademisi A.A.Bakıhanov adına Tarih Enstitüsü arasında Bilimsel İşbirliği Protokolü, 5 Nisan 2013, Bakü, http://www.atam.gov.tr/duyurular/ataturk-arastirma-merkezi-ile-azerbaycan-milli-ilimler,(5.12.218).



1-2 oktyabr 2013-cü ildə Yaqub müəllimin dəvəti ilə Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Dağıstandan olan görkəmli alimlər Şəki şəhərinə, AMEA Tarix İnstitutunun təşkil etdiyi "Ortaq türk tarixinin araşdırılması məsələləri" mövzusundakı beynəlxalq elmi konfransa toplandılar. Konfransın başlıca məqsədi ortaq türk tarixinin öyrənilmısi, ortaq kitabların yazılması və ortaq araşdırmaların aparılması olmuşdur. Bu konfransda Yaqub müəllimin təklifi ilə Türk Dünyası tarixçilərinin Ortaq Əlaqələndirmə Şurası yaradılmışdır. Yaqub müəllim bu konfransda aparılan müzakirələri qiymətləndirərkən Türk Dünyası tarixçilərinin aralarında olan mübahisələri öz aralarında həll etməli olduqlarını, ortaq türk tarixinin yazılması üçün bir komissiya təşkil edilməsinin vacibliyini bu şəkildə vurğulamışdı: "*Tarixi hadisələrə obyektiv baxaraq ən qısa zamanda ortaq tariximizi qələmə almalıyız*"[7].

[7] "Ortaq Türk tarixinin araşdırılması məsələləri" mövzusunda I beynəlxalq elmi konfransın proqramı. 1-2 oktyabr 2013, Azərbaycan, Şəki şəhəri.



22-23 iyun 2014-cü ildə yenə də Azərbaycanın Şəki şəhərində Yaqub müəllimin başçılığı, Türkiyə və digər ölkə alimlərinin də iştirakı ilə "Ortaq türk tarixi" lahiyəsinin Təşkilat komitəsi yaradılmış, yazılacaq "Türk dövlətləri" və "Türk məşhurları" kitabının müzakirəsi keçirilmişdir. Yazılacaq kitabların redaksiya heyəti yaradılmışdır. Redaksiya heyətinin ikinci toplantısı 21.01.2016 tarixində Kocaelində həyata keçirilmişdir. Bu lahiyə çərçivəsində ortaq konfranslar keçirilmiş, kitabların nəşri və s. həyata keçirilmişdir. Yaqub müəllim ortaq türk şəxsiyyətlərinə baxışını bu şəkildə ortaya qoymuşdur: "*Tarix obyektiv və bitərəf yazılmalıdır, Sultan Yavuz da Türk millətinin oğludur, Şah İsmayıl da, Əmir Teymur da, Sultan Bəyazid də*". Yaqub müəllim bu şəxsiyyətlərin hər birinə eyni hörmətlə yanaşmağı tövsiyə edir[8].

- Yaqub müəlimin başçılığı ilə türk dünyasının elmi qurumları ilə əməkdaşlıq protokolları (Türkiyə, Qazağıstan, Özbəkistan, Tatarıstan və s.) imzalanmışdır. Burada onu da qeyd etmək lazımdır ki, Tarix İnstitutunun Türkiyə

[8]Atatürk Araştırma Merkezi "Türk Devletleri" ve "Türk Meşhurları" konulu eserlerin redaksiyon çalışmaları toplantısı, 21-22.01.2016, Kocaeli The Ness Hotel, Toplantı Sayısı: 2016/4.

Cümhuriyyətində dərc olunan "Akademik Tarix və Düşüncə" jurnalı ilə də əməkdaşlıq müqaviləsi vardır və bu əməkldaşlıq səmərəli bir şəkildə davam edir.

- Türk ölkələrinin tarixçiləri AMEA Tarix İnstitunun dissertant ve doktorantı olmuşlar.
- Türkiyə Cümhuriyyətinin görkəmli alimlərindən Yusuf Halacoğlu, Mehmet Saray, İlber Ortaylı, Seyit Sertçelik, Halil İnalcık, Mehmet Ali Beyhan, Derya Örs, Refik Turan, Selma Yel, Özbəkistandan Şöhrət Barlas, İrandan Məhəmməd Salmasizadə və başqaları AMEA Tarix İnstitutunun fəxri doktorları sırasındadırlar**.** Bunların içərisində dünya şöhrətli alim Xəlil İnalcığa Fəxri doktor diplomu 2012-ci il noyabrın 7-də Türkiyənin Ankara şəhərində, Bilkənt Universitetində keçirilən mərasimdə AMEA Tarix İnstitutunun direktoru Yaqub Mahmudov tərəfindən təqdim edilmişdir. Təqdimetmə mərasimində Azərbaycanın Türkiyədəki o vaxtkı fövqəladə və səlahiyyətli səfiri Faiq Bağırov da iştirak etmişdir[9].

[9]İnalçıq Xəlil Tarix İnstitutunun Fəxri Doktoru oldu olaylar.az/news/sosial/17510,(01.11.2012); Azərbaycan və Türkiyə ortaq tarixin yazılmasına dair razılığa gəliblər, https://az.trend.az/azerbaijan/society/tml, (05.12 2012).


NAXÇIVAN
NAKHCHIVAN



Elmi Əməkdaşlıq protokolunun 5-ci bəndinə əsasən dörd ildən bir təşkil edilən VIII. Atatürk qurultayı 13-15 oktyabr 2015 tarixində Azərbaycan və Türkiyə prezidentlərinin himayəsi ilə Gəncə şəhərində keçirilmişdir. 13 ölkədən 130 tarixçinin iştirak etdiyi bu qurultaya Azərbaycan prezidenti İlham Əliyev təbrik məktubu göndərmişdir. Bu qurultayda Yaqub müəllim demişdir: "Azərbaycanın prezidenti İlham Əliyevin söylədiyi kimi: "*Azərbaycan-Türkiyə münasibətlərinin dünyada bənzəri yoxdur*"[10]. 13-15 oktyabr 2015 tarixlərində Azərbaycanın Gəncə şəhərində təşkil olunan VIII Atatürk qurultayının açılışında Yaqub Mahmudov "*Heydər Əliyevin **bir millət, iki dövlət** deyimi qarşılıqlı əlaqələrimizi yeni zirvələrə yönəldir. Azərbaycan Prezidenti İlham Əliyevin müdrik, qətiyyətli və cəsarətli siyasəti sayəsində **Azərbaycan-Türkiyə qardaşlığı** alınmaz qalaya çevrilmişdir. Bu münasibətlərin Tarix elmi sahəsində genişləndirilməsi və möhkəmlənməsi istiqamətində AMEA Tarix İnstitutu və Atatürk Araşdırma Mərkəzi fəal şəkildə iş aparır, çox maraqlı və önəmli lahiyələr həyata keçirir*" dedi[11].

Əməkdaşlıq protokolunun davamı olaraq görkəmli alimin təşəbbüsü ilə bir çox mövzuda konfranslar keçirilmişdir[12].

- Azərbaycan həqiqətlərini dünyaya çatdıran alimlər öz vətənlərində təzyiq və təhdidlərlə qarşılaşdıqları zaman Yaqub müəllim İnstitutun əməkdaşları ilə birlikdə onların müdafiəsinə qalxmış, ədalətin bərpa olunmasına çalışmışdır (Məsələn, Özbəkistandan Şöhrət Salamovun (Barlas) "Türkistan və Cənubi Qafqaz XIX-XX əsrlərdə. Daşnaklar: Fərqanədən Qarabağa" (2015) və "Qarabağ: Fikirlər savaşı" (2016) kitablarına görə)

---

[10] Prezident İlham Əliyevin dünya tarixçilərinin VIII beynəlxalq Atatürk konfransının iştirakçılarına müraciəti İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti, Bakı şəhəri, 9 oktyabr 2015-ci il. http://www.president.az/articles/(13.10. 2015).

[11] Azerbaycan Milletvekili-Azerbaycan Milli İlimler Akademisi Tarih Enstitüsü Başkanı Prof. Dr. Yagub Mahmudov. Kongreye Gelen Mesajlar ve Açılış Konuşmaleri. Uluslararası Atatürk Kongresi (VIII : 2015 : Gence) VIII. uluslararası Atatürk kongresi ; Gence , 13-15 Ekim 2015 : Bildiriler Ankara : AKDTYK atatürk Araştırma Merkezi Yayınları, 2017, XXV.

[12] Tarih ve Kültür Ekseninde Orta Aras Havzası Uluslararası Sempozyumu, 17-19 Kasım 2016, Nahçıvan şehri; Başbakanlık Atatürk Kültür Dil ve Tarih Yüksek Kurumu Atatürk Araştırma Merkezi ile Azerbaycan Milli İlimler Akademisi Tarih Enstitüsü, 13-16 Eylül 2018, I. Dünya Savaşı Dönemi'nde Osmanlı Devleti-Azerbaycan İlişkileri ve Kafkas İslam Ordusu Uluslararası Sempozyumu Bakü/Azerbaycan vb.

- Azərbaycanda yaşayan müxtəlif azsaylı xalqların tarixi də Yaqub müəllimin diqqət mərkəzindədir və onların tarixinin araşdırılmasında fəaliyyəti böyükdür.
- Yaqub müəllim getdiyi xarici ölkələrdə Azərbaycanın haqq səsini heç bir təzyiq və təhdiddən çəkinməyərək yaymağa çalışmışdır. 2018-ci ilin fevral ayında Ankarada təşkil edilmiş Xocalı soyqırımının 26-cı ildönümünə həsr olunmuş Beynəlxalq Xocalı Simpoziumunda Yagub müəllim bu sözləri söyləmişdi: "*Qərbin bəzi dairələri bizi eşitmək, görmək və dediklərimizi qanmaq istəmirlər. Bu gün Azərbaycanı və Türkiyəni içəridən qarışdırmaq üçün planlar var. Tarixinə sahib çıxan xalq məğlubedilməzdir. Tarixinə sahib çıxmayan xalq isə gec-tez başqalarına yem olur. Bütün türk dünyasını qafalarda birləşdirmək lazımdır*"[13].

  Məhz bu yolda bütün maneə və sədlərə baxmayaraq yorulmaz fəaliyyətinin nəticəsidir ki, bu gün Yaqub müəllimi Türk dünyası tarixçilərinin ağsaqqalı olaraq qəbul edilir.



[13] Qərbin Türkiyə və Azərbaycanla bağlı məkrli – Planı http://axar.az/news/hadise/,(15.05.2019).



- Akademik Yaqub Mahmudov Türkiyənin Giresun Universitetində 26-27 fevral 2019-cu il tarixində III Beynəlxalq Xocalı Soyqırımı və Türk Dünyası Simpoziumundakı çıxışında bildirmişdi: "Biz bura ağlayıb, sızlamağa gəlməmişik, hər ildönümünü qeyd edərək erməniləri sevindiririk, gənclərimizə qələbələrimizi qeyd etməyi aşılamalıyıq. Mən qisasçı insan deyiləm, ancaq indi deyirəm qisasımızı almalıyıq, gənclərə səslənirəm, cəsarətli olun, heç nədən qorxmayın və türk olduğunuzu unutmayın. Tarix şüurumuzu dəyişməliyik, tarixi şəxsiyyətlərimizə sahib çıxmalıyıq, Şah İsmayıl Xətaini və Sultan Yavuzu "Çaldıran Döyüşü"nə görə deyil, gördüyü yaxşı işlərinə görə xatırlamaq lazımdır. Bizə bu günümüzdə başsağlığı vermək yaraşmır. Biz tarixdən ibrət dərsi almalıyıq. Ermənilər bizim bayram günlərimizdə qətliam törədirlər. Bizi məhv edəni məhv etməliyik. Mən intiqam hissi ilə yaşayan insan deyiləm. Amma biz bu simpoziumdan "qan yerdə qalmamalıdır" düşüncəsi ilə ayrılmalıyıq"[14].

[14]III Beynəlxalq Xocalı Soyqırımı və Türk Dünyası Simpoziumu baş tutub, http://sia.az/az/news/,(20.05.2019).





- Yaqub müəllim institut əməkdaşlarından diqqət və qayğısını heç zaman əsirgəmir, onların uğurlarına hər zaman sevinir.



- Azərbaycan Tarix Qurumu İctimai birliyinin fəaliyyəti də daim Yaqub müəllimin nəzəri və diqqətindədir. Məhz bu diqqətin nəticəsidir ki, AMEA Tarix İnstitutu Azərbaycan Tarix Qurumu ilə birlikdə konfranslar təşkil edir, bu qurumun fəaliyyətində Yaqub müəllim yaxından iştirak edir. Təsadüfi deyil ki, 2013-cü il dekabrın 6-7-də Bakıda AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu və Azərbaycan Tarix Qurumu ictimai birliyinin təşkilatçılığı ilə "XIX əsrin əvvəllərində Qafqaz müharibələri və onların nəticələri" mövzusunda Beynəlxalq elmi konfrans keçirilmiş, konfransın işində 8 ölkədən - Azərbaycan, Türkiyə, Rusiya, Ukrayna, Gürcüstan, ABŞ, İran və Albaniyadan 80-ə yaxın alim iştirak etmişdir[15]. Hər iki qurumun əməkdaşlığı ilə beynəlxalq konfranslardan biri də 2018-ci il noyabrın 30-da Bakıda "Şərqdə ilk demokratik respublika və onun Azərbaycan tarixində yeri" mövzusunda keçirilmişdir. Tədbir Prezident İlham Əliyevin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" və "2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli"

[15] Beynəlxalq elmi konfrans http://www.science.gov.az/institutes/(10.05.2019).

elan edilməsi haqqında" sərəncamlarına uyğun olaraq reallaşdırılmış, Azərbaycan Xalq Cümhuriyyətinin 100 və "Azərbaycan Tarix Qurumu" İctimai Birliyinin 25 illiyinə həsr olunmuşdur. Tədbirdə çıxış edən Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov Prezident İlham Əliyevin Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı sərəncamlarının əhəmiyyətini vurğulamış, Azərbaycan Xalq Cümhuriyyətinin tariximizdəki müstəsna rolundan danışmış, "Azərbaycan Tarix Qurumu" İctimai Birliyinin fəaliyyəti ilə bağlı fikirlərini söyləmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin dünya tarixinin ən demokratik dövlət qurumlarından biri olduğunu bildirən görkəmli alim müsəlman Şərqində qadınlara seçki hüququnun ilk olaraq Cümhuriyyət dövründə - 100 il əvvəl verildiyini, Cümhuriyyətin irqi, milli, dini və sinfi bərabərsizliyi ləğv edərək bütün vətəndaşların hüquq bərabərliyini təmin etdiyini, Tarix İnstitutunda Cümhuriyyətm tarixinə dair çoxlu sayda sanballı əsərlər, o cümlədən ikicildlik ensiklopediya nəşr edildiyini bildirmişdir[16].

[16] "Şərqdə ilk demokratik respublika və onun Azərbaycan tarixində yeri" mövzusunda beynəlxalq elmi konfrans keçirilib https://azertag.az/xeber/Serqde_ilk_demokratik_respublika, (30.11.2018).




## Nəticə

Azərbaycanın ümummilli lideri Heydər Əliyev zamanında Yaqub müəlimin yorulmaz fəaliyyətini yüksək qiymətləndirmiş və onu "Azərbaycanın böyük tarixçisi" adlandırmışdır. Təsadüfi deyil ki, Azərbaycan prezidenti İlham Əliyev daim Yaqub müəllimin fəaliyyətini diqqətdə saxlayır, onun Azərbaycan tarixinin araşdırılması və təbliğ edilməsi istiqamətindəki, eyni zamanda millət vəkili kimi yorulmaz fəaliyyətinə layiqli qiymətini verir. Onun 2019-cu ildə 1-ci dərəcəli "Əmək" ordeninə layiq görülməsi, ölkə prezidenti tərəfindən dəğərli alimin fəaliyyətinə verilən qiymətdir.



Türk Tarix Qurumunun Şərəf üzvü olan Yaqub müəllimin elmi ve ictimai fəaliyyəti istər Azərbaycan, istərsə də beynəlxalq miqyasda mükafatlandırılmışdır. Beləliklə, sadəcə 2019-cu ildə o, "Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalına, "General Səməd Bəy Mehmandarov" yubiley medalına, "Simurq" beynəlxalq medalına, "Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919-2019)" yubiley medalına, Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının "Beynəlxalq Qızıl Ulduz" medalına, "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalına, "Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalına, Oksford Akademik Birliyinin fəxri professoru adına, Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvlüyünə, Tarixdaş Millətlər və Topluluqlar Cəmiyətinin Ali Məsləhət Şurasının üzvlüyünə, Tarix İnstitutunun təsis etdiyi "Gənclərin dostu" mükafatına və Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının Beynəlxalq Atatürk Mükafatına layiq görülmüşdür.

Yaqub müəllimin Türk dünyası alimlərinə verdiyi qiymətin nəticəsidir ki, onun AMEA Tarix İnstitutuna rəhbərlik etdiyi gündən indiyədək Tarix İnstitutunun Fəxri Doktor" adına layiq gördüyü 22 müxtəlif ölkə ailmlərindən məhz 11-i Türk dünyasından, bunun da 9-ü Türkiyə Cümhuriyyətindən olan tanınmış alimlərdir.

Akademik Yaqub müəllimi Yubileyi münasibətilə ilə ürəkdən təbrik edir, Azərbaycanın, eləcə də Türk dünyasının problemlərinin araşdırılması istiqamətində uğurlar, uzun ömür və ən əsası isə can sağlığı arzulayıram.

Cəfakeş akademik yubileyin mübarək!

## Kaynaklar

Atatürk Araştırma Merkezi "Türk Devletleri" ve "Türk Meşhurları" konulu eserlerin redaksiyon çalışmaları toplantısı, 21-22.01.2016, Kocaeli The Ness Hotel, Toplantı Sayısı: 2016/4.

"Azerbaycan Milletvekili-Azerbaycan Milli İlimler Akademisi Tarih Enstitüsü Başkanı Prof. Dr. Yagub Mahmudov". Kongreye Gelen Mesajlar ve Açılış Konuşmalari, VIII. Uluslararası Atatürk Kongresi, 13-15 Ekim 2015; Bildiriler Ankara: AKDTYK Atatürk Araştırma Merkezi, 2017.

Azərbaycan və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırımları (1914-1920-ci illər)" mövzusuna həsr olunmuş II beynəlxalq elmi konfrans proqramı 8-12 aprel 2015, Azərbaycan, Quba şəhəri.

"Azərbaycan və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırımları (1914-1920-ci illər)" mövzusuna həsr olunmuş II beynəlxalq elmi konfransın materialları, Elmi əsərlər, xüsusi buraxılış, Bakü, 2015, 52, 53, 54, 55-ci cildlər.

"Azərbaycan və Şərqi Anadoluda Türk-müsəlman əhaliyə qarşı soyqırımları (1914-1920-ci illər) mövzusuna həsr olunmuş III beynəlxalq elmi konfrans, 7-10 aprel 2016, Şamaxı şəhəri.

"Azərbaycan və Şərqi Anadoluda Türk-müsəlman əhaliyə qarşı soyqırımları (1914-1920-ci illər) mövzusuna həsr olunmuş III beynəlxalq elmi konfransın materialları, Elmi əsərlər (AMEA Tarix İnstitutu), 07-10 aprel 2016, Şamaxı şəhəri, xüsusi buraxılış, Bakı 2016, cild 56,57,58.

Başbakanlık Atatürk Kültür Dil ve Tarih Yüksek Kurumu Atatürk Araştırma Merkezi ile Azerbaycan Milli İlimler Akademisi Tarih Enstitüsü, 13-16 Eylül 2018 I. Dünya

Savaşı Dönemi'nde Osmanlı Devleti-Azerbaycan İlişkileri ve Kafkas İslam Ordusu Uluslararası Sempozyumu Bakü/Azerbayan.

"Ortaq Türk tarixinin araşdırılması məsələləri" mövzusunda I beynəlxalq elmi konfransın proqramı. 1-2 oktyabr 2013, Azərbaycan, Şəki şəhəri.

"1. Türkiye-Azerbaycan İlişkileri ve Gelecek Perspektifi" Çalıştayının programı, 24-25 Mayıs 2012, Ankara, Kızılcahamam.

I. Türkiye-Azerbaycan İlişkileri ve Gelecek Perspektifi Çalıştayı. (24-25 Mayıs 2012, Ankara, Kızılcahamam), Tebliğler. Ankara, 2016.

"XX əsrdə Türk-müsəlman xalqlarına qarşı soyqırımları" mövzusuna həsr olunmuş IV beynəlxalq elmi konfransın proqramı, 22-27 aprel 2017, Azərbaycan Respublikası, Lənkəran şəhəri.

"XX əsrdə Türk-müsəlman xalqlarına qarşı soyqırımları" mövzusuna həsr olunmuş IV beynəlxalq elmi konfransın materialları,. 22-27 aprel 2017, Azərbaycan Respublikası, Lənkəran şəhəri, xüsusi buraxılış, c. 64, 65, 66., Bakı: Elmi Əsərlər, 2017.

1918-ci il azərbaycanlıların soyqırımın yüzüncü ildönümünə həsr olunmuş "XX əsrdə Türk-müsəlman xalqlarına qarşı soyqırımları" mövzusuna həsr olunmuş V beynəlxalq elmi konfransşn proqramı.

1918-ci il azərbaycanlıların soyqırımın yüzüncü ildönümünə həsr olunmuş "XX əsrdə Türk-müsəlman xalqlarına qarşı soyqırımları" mövzusuna həsr olunmuş V beynəlxalq elmi konfransın materialları., 25-29 aprel 2018, Azərbaycan Respublikası, Qusar şəhəri, xüsusi buraxılış, c.70, 71, 72.Bakı: Elmi Əsərlər 2018.

Tarih ve Kültür Ekseninde Orta Aras Havzası Uluslararası Sempozyumu, 17-19 Kasım 2016, Nahçıvan şehri.

https://az.trend.az/azerbaijan/society/2540262.html,(04.06.2016).

https://azertag.az/xeber/Serqde_ilk_demokratik, (12.10. 2019).

http://www.az/news/sosial/17510(01.11.2012).

https://az.trend.az/azerbaijan/society/2095624.html, (05.12.2012).

http://axar.az/news/hadise/254909.html, (1505.2019).

https://milletinsesi.info/article/az/54962?dil=en  (28.02.2018).

https://az.trend.az/azerbaijan/society/3067861.html,(25.05.2019).

http://www.atam.gov.tr/duyurular/ataturk, (5.12.218).

http://sia.az/az/news/social/727610.html,(20.05.2019).

http://www.science.gov.az/institutes, (10.05.2019).

http://www.president.az/articles,/(13.10.2015).